# Qaşqaylar və onların folkloru

Folklorşünas alim Əli Şamilin "Qaşqaylar və onların folkloru" kitabını oxuculara təqdim edirik

*əvvəli ötən sayfarımızda*

**"İslam Ansiklopedisi"ndə Şirazi ləqəbli bir şairdən də söz açılır. Şeyx Mahmud Şəbüstərinin «Gülşən-i raz" əsərini Türkcəyə çevirən şairin adını Əlvan Şirazi və ya Şeyx Əlvan Şirazi kimi göstərilir. Məqalə müəllifinə görə 779/ 1377-78-ci ildə Türküstanda doğulan şairin atası Şirazlı olub. Bu qeyd onu göstərir ki,14-cü yüzildə Şirazda Türklər yaşayırmış. Özü də onlar özlərini gəlmə saymadıqlarından ləqəblərini Şirazi kimi işlədirlərmiş.**

Şeyx Mahmud Şəbüstərinin «Gülşən-i raz" əsərinin tərcüməsini 829/1425-26-cı illərdə bitirən Əlvan Şirvani məsnəvini Sultan Murada bağışlamışdır. Ayrı-ayrı qaynaqlarda məsnəvinin 993, 1008 beyt olduğu, tərcüməçinin isə özünün əlavə və şərhləri ilə beytlərin sayını 2854-ə, 3000-ə, 3070-ə çatdırıldığı göstərilir.

Möhsün Nağısoy Mahmud Şəbüstərinin «Gülşən-i raz" əsərinin tərcüməsini Şirazi haqqında Məhəmmədəli Tərbiyətin, Əbdülqadir Gölpinarlının və b. yazdıqlarını geniş təhlil edir. O, tərcüməçinin əməyini yüksək qiymətləndirir və adının Vəli Şirazi olduğu yazır.

Şahin Mustafayevin və Möhsün Nağısoyun araşdırmaları onu göstərir ki, yalnız indi deyil, orta əsrlərdə də Şirazda yaşayan Türklərin sayı heç də az deyilmiş.

## Yusif Qarabağinin dünyagörüşünün formalaşmasında Şirazın rolu

Şirazla bağlı olan Azərbaycanlı filosof şairlərdən biri də Yusif Qarabağidir. Yusif Məhəmmədcan oğlu Məhəmmədşahi 1562-63-cü illərdə Azərbaycanın Qarabağ bölgəsində ruhani ailəsində doğulub. İlk təhsilini atasının açdığı məktəbdə alan Yusifi atası təhsilini davam etdirmək üçün Şirvana göndərir. Orada dövrünün məşhur filosofu və ilahiyyatçısı Habibulla Mirzəcan Şirazi əl-Baqnəvi işə tanış olur və Qarabaği ləqəbini götürür.

Şirazda, tibb, riyaziyyat, astronomiya və b. elmlərə dərindən yiyələnən Yusif Qarabaği Əmir Teymurun nəvələrinin hakim olduqları Hindistana gedir. Bir neçə il orada yaşadıqdan sonra Türküstana yollanır. Öncə Səmərqənddə yaşayır və mədrəsədə dərs deyir. Şəhərin filosof və şairləri arasında qazandığı hörmətə görə "Böyük axund" adlandırılır.

Sufilərin Kəbrəviyyə təriqətdəki azadfikirlilik, insanın Allaha qovuşmasının yollarının saflıqdan, təmizlikdən, xeyirxahlıqdan keçməsi fikirləri Yusif Qarabağini özünə elə cəlb etdiyində onun üzvlərinə qoşulur və qısa müddətdə təriqətin öncüllərindən birinə çevrilir.

Kosa ləqəbilə məşhurlaşan Yusif Qarabağinin Səmərqənddə Hüseyniyə xanəgahında yaşayarkən Mövlanə Cəlaləddin Dəvvaninin "Şərhi əqaidi-əzüdi" əsərinə haşiyə və əlavələr yazır.

"Haşiyeyi Xanigahı" adlanan bu əsərini 30 noyabr 1590-cı ildə ustadı Əbu Hamid Xəlilullaha təqdim edir.

Yusif Qarabağinin "Haşiyeyi Xanigahı" əsəri çağdaşları tərəfindən birmənalı qarşılanmır. Onu tərifləyənlər də olur, tənqid edənlər də. Ağa Hüseyin Xalxali "Haşiyeyi Xanigahı" əsərinə tənqid yazır.

Buxarada əmiri Bahadur xan elmin müxtəlif sahələrinə dair əsərlər, şeir yazmaqla yanaşı, alimlərə də qayğı və diqqət yetirirdi. Sarayında alimlərin, şairlərin, nəqqaşların, xəttatların, miniatürcülərin və b. sənət adamlarının çalışması üçün lazımi şəraət yaradırmış. Buna görə də Yusif Qarabaği sevgili müəllimi Mirzəcan Şirazi ilə birlikdə Səmərqənddən Buxaraya köçür.

Əmir Bahadur xan Yusif Qarabaği ilə ustadı Mirzəcan Şirazinin gəlişini xoş qarşılayır. Onların işləmələri, yaşamaları və elmi axtarışlar aparmaları üçün lazımi şərait yaradır. Az bir zamanda Yusif Qarabaği Əmir Bahadur xanın sevimlisinə və yaxın dostuna çevrilir.

1623-cü ildə Buxarada yaşayanda Ağa Hüseyin Xalxalinin tənqidinə "Tətimmətul-həvaşu fi izalətil-ğəvaşi" (Qaranlıq məsələləri aradan qaldırmaq məqsədilə haşiyələrə əlavə) adlı cavab yazır.

Əmir Bahadur xan Yusif Qarabağinin şərəfinə 1619-cu ildə yeni bir kitabxana tikdirir, onu da "vəziri kitabxana" təyin edir. Yusif 102

Qarabaği Fərabi, İbn Sina, Bəhmənyar, Biruni, Tusi, Qəzvini, Davvani, Taftazani kimi filosofların əsərlərinə şərhlər yazmaqla qalmır, həm də Aristotel, Platon, Pifaqor, Sokrat kimi batı filosoflarının əsərlərinə şərhlər yazır, öz baxışlarını da bu əsərlərində ortaya qoyur.

"Nur saraylarının şərhi olan hür mənzərələrinə haşiyə", "Varlıq fəlsəfəsi kitabına haşiyə" və b. əsərlərini də Buxarada yaradır. Əsərlərində dünyanın vahidliyi ideyasını müdafiə edən filosof varlığı fəlsəfənin obyekti hesab edir. Ona görə təbiətlə insan arasındakı münasibət tək ilə cəm, hissə ilə tam arasındakı münasibətə oxşayır.

Yusif Qarabaği Allahı insanın özündə axtarmaqla kifayətlənmir, onu təbiətin içərisində arıdır. Kiçik aləm olan insanı böyük aləmi təbiətin surəti hesab edir. Savaşlar, zəlzələlər, yanğınlar böyük elm fədailərinin əsərləri sırasında Yusif Qarabağinin də əsərlərini yox etdi. Ancaq alimin əsərləri tamamilə məhv olmadı. Dünyanın bir çox kitabxanalrında, elm və mədəniyyət mərkəzlərində, muzeylərdə həmyerlimizin əsərləri saxlanılır.

Özbəkistan Elmlər Akademiyasının Biruni adına Şərqşünaslıq İnstitutunun Əlyazmalar fondunda Yusif Qarabağinin 24 traktatı saxlanılır. Alimin sağlığında və ölümündən sonra onun haqqında olduqca dəyərli fikirlər söyləmişlər. Türküstanlı təzkirəçi Mir Şərif Seyid Xacə Raqemi "Tarixi Raqemi" əsərində Yusif Qarabağidən söz açarkən onu, "bilik səmasının on dörd gecəlik bədirlənmiş ayı" adlandırır. Şair və filosof kimi məşhurlaşan Yusif Qarabağinin istedadını, Əmir Bahadur xanla dostluğunu qısqananlar da az olmayıb. Onu qısqanan, paxıllığını çəkənlər qanqaraldıcı söz-söhbətlərdən qalmır, arxasınca yalanlar söyləyir, riyakarlıq edir, hətta böhtan atmaqdan belə çəkinmirlər. O isə rəqiblərinə onların metodları ilə deyil, yaradıcılığı və insanpərvərliyi ilə cavab verir.

Əmir Bahadur xan da Yusif Qarabağinin bu xüsusiyyətlərini yüksək qiymətləndirir onun tibbə dair əsərlərindən həkimlərin yararlanmasını məsləhət görür.

Yusif Qarabağinin Əbu Əli İbn Sinanın "Qanun" əsərinə yazdığı şərh və izahlar, özünün tibbə dair yazdığı kitablar yaşadığı dövrdə deyil, özündən sonrakı yüzillərdə də böyük maraqla qarşılanmışdır.

Yusif Qarabaği elmin nəzəri sahələrindən çox praktik məsələlərə diqqət yetirən alimlərdən olmuşdur. Əmirlər, sultanlar, vəzir-vəkillər, saray əyanları və divan üzvləri ondan məsləhət almış, hüquqa, dövlətin idarə olunmasına dair yazdığı əsərlərdən istifadə etmişlər.

Yusif Qarabağinin türkcə yazdığı şeirlər yüksək bədii dəyəri və dilinin aydınlığı ilə seçilir. O, yazır:

Ürəyim qana doldu, bu qan da olmalıydı,
Cövrünlə bundan yaxşı daha nə olmalıydı?

Həyatını elmə və şeirə həsr etmiş Yusif Qarabaği 1647-ci ildə (bəzi qaynaqlarda isə 1644-45-ci il göstərilir) Buxarada dünyasını dəyişir. Onu Buxara yaxınlığındakı Səfid-Muy kəndində, indi Sallaxana darvazası kimi tanınan Baba-i Şauki Parəduz darvazasının yaxınlığındakı qəbiristanda dəfn edirlər.

43 il sonra, yəni 1690-cı ildə onun cənazəsini Bədəxşana apararaq, sevimli müəllimi Xəlilullah Bədəxşaninin türbəsinin yanında dəfn edirlər. Kəbrəviyyə təriqətinin üzvləri Yusif Qarabağinin əsərlərinin təbliğində və ideyalarının yayılmasında böyük rol oynamışdır.

Şahbaz Şahbazi Qaşqay şairləri haqqında Qaşqay şairləri haqqında bilgi verən qaynaqlar Mahmud İskəndərinin "Şeir və şairi dər ile Qaşqay" (Qaşqay elində şeir və şairlər) (1358/1979) və Şahbaz Şahbazinin "Qaşqai şiiri və asar-i şüara-yi Qaşqayi" (Qaşqay şeiri və Qaşqay şairlərinin əsərləri) (1367/1988) kitablarıdır. Tağı İbrahimov (Şahin) də doktorluq dissertasiyasında və "Qaşqaylar" kitabında yuxarıda adını çəkdiyimiz müəlliflərin əsərlərindən yararlanıb.

"Qaşqaylar və onların folkloru" kitabını mətbəyə göndərməyə hazırlaşanda Cəfər ?yvəzi Yadıkun nəşr etdirdiyi son kitabının elektron variantını mənə göndərdi. 2019-cu (1397) ildə Şirazda nəşr edilmiş "Qaşqayının gələnəksəl şeirləri" kitabında şeirləri verilmiş şairlərin siyahısı belədir: "Mirzə Mezun (Məhəmməd İbrahim), Yusifəli bəy (Yusif-i Xosrov), Xosrov bəy (Xosrov), Qul Oruc, Hüseynəli bəy Bayat (Bayatoğlu Hüseyn), Nemətulla bəy Rəhimi, Əli Şaylı, Məssi xan Qaraçaylı (Məsih), Hamrah, Koroğlu." Kitabda ən çox şeir "Məhəmməd İbrahimindir (Mirzə Mezun) (səh.2-118). Yerdə qalan şairlərin şeirləri çox azdır.

Qaşqayların istər yazılı, istər şifahi ədəbiyyatında şeir şəkilləri o qədər də çox deyil. Onları sıralasaq birinci yeri bayatılar tutar. Qaşqaylar ona asanak deyirlər. Ondan sonra gəraylılar gəlir.

Əsasən musiqinin müşayətilə oxunur. Gəraylılar oxunan müsiqidə üç yerə ayrılır: gəraylı, baş gəraylı və basma gəraylı.

Qoşmaya çox vaxt qəzəl deyirlər. Şah Xətai adlandırdıqları janr bizim aşıq şeirindəki divani ilə eynidir. Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poeması nəşr edilib yayıldıqdan sonra bu qəlibdə də şeir yazanların sayı artıb. Mənsur Şah Məhəmmədi Dena dağına həsr etdiyi şeirini belə başlayar:

Qismət oldu Dena, gəldim döşünə,
Səcdə qılam torpağına, daşına,
Nəzər salam qamətinə, başına,
Qucaq aç ta girəm gnə qoynuna,
Ana kimin mən əl salam boynuna
(Cəfər yvəzi Yadıkun,
"Qaşqayının gələnəksəl şeirləri" səh. 5)

İkinci Dünya Savaşından sonra ədəbiyyata gələn gənclərin bir çoxu sərbəst vəzndə yazmağa başlayıblar.

Qaşqay Türklərindən olan Müslüm Rzayi Əməleh də (Farsca: Moslem Rezaei Amaleh) 2016-cı ildə Ankaradakı Qazi Universitetinin magisturaturasını bitirərkən yazdığı "Kaskay Turklerinden Mansur sah Muhammedinin siirleri (inceleme-me105 tin-sozluk)" əsərində Şahbaz Şahbazinin kitabından geniş istifadə etmiş, oradakı şeirlərdən nümunələr də vermişdir. Şahbaz Şahbazi Qaşqay yazılı ədəbiyyatından söz açarkən 18-ci yüzildə yaşamış Nişatı ləqəbilə şeirlər yazan Mirzə Məhəmməd haqqında bilgi verir və onun Çıtır boyundan olduğunu söyləyir. (Moslem Rezaei Amaleh, səh. 24)

Şahbaz Şahbazi Dərəşorlu tayfasının Çardaçerik boyundan olan Qul Oruc ləqəbli şairin 1200 (1784)-1260 (1844)-cı illərdə yaşadığını və elbəyi Murtazaqulu xanın ölümünə yazdığı şeirin Qaşqayiar arasında geniş yayıldığını yazır və həmin şeiri də kitabına daxil edir.

Tağı İbrahimov (Şahin) "Qaşqaylar" kitabında yazır: Qaşqayların Fars dilində də şeir yazan çoxlu şairləri və ədibləri vardır. Onlardan bəzilərinin avtobioqrafiyası və şeirlərindən nümunələr Fars müəlliflərinin əsərlərində verilmişdir: Zərrə, Hüma, Niyza, Nisar və s. təxəllüsləri ilə Fars dilində şeir yazanlar Qaşqayların və ümumiyyətlə, Azərbaycan mənşəli əhalinin məşhur şairlərindəndilər" (T.Ə. İbrahimov (Şahin), Qaşqaylar, səh. 106).

Tağı İbrahimov (Şahin) Qaşqayların 20-ci yüzildə yaşamış şairlərindən söz açarkən yazır: "Qaşqayların 20-ci əsr şairləri də çoxdur. Onlardan ana dilində yazanlar haqqında hələlik əlimizdə məlumat yoxdur. Fars dilində yazanlardan bir neçəsinin adını çəkə bilərik. Onlardan Tabnak və Türki Şirazi təxəllüslü şairləri göstərmək olar." Müəllif 18-ci yüzilin ikinci yarısı və 19-cu yüzilin birinci yarısında yaşamış din və hüquq elmləri sahəsində nüfuz qazanmış Qaşqay alimlərindən Ağa Məhəmməd Rzanın, Mirzə Hüseynəli Şirazinin adlarını çəkir.



**ardı var...**